# "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarının qüvvədən düşmüş hesab edilməsi və "Azərbaycan Respublikasının Milli Bankı haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. Azərbaycan Respublikasının aşağıdakı qanunları qüvvədən düşmüş hesab edilsin:

1. "Azərbaycan Respublikasının ərazisində hüquqi qüvvəsini müvəqqəti olaraq saxlayan keçmiş SSRİ qanunları və onların tətbiqi haqqında" Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992-ci il, № 20, maddə 890);

2. "Prokurorluq orqanlarının statusunu müəyyənləşdirən keçmiş SSR-nin qanunvericilik aktlarının Azərbaycan Respublikasının ərazisində hüquqi qüvvəsini saxladığının təsdiqi və onların tətbiqi qaydası barədə" Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992-ci il, № 16, maddə 705);

3. "Azərbaycan Respublikası qanunlarının, Azərbaycan Respublikası Ali Sovetinin, onun orqanlarının qəbul etdikləri digər aktların imzalanması, dərc olunması və qüvvəyə minməsi qaydası haqqında" Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1991-ci il, № 4, maddə 85).

II. "Azərbaycan Respublikasının Milli Bankı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu 1997-ci il, № 3, maddə 172; 1999-cu il, № 2, maddə 59; 1999-cu il, № 5, maddə 294) 47-ci maddəsində aşağıdakı dəyişikliklər və əlavələr edilsin:

1-ci bəndindən ikinci və dördüncü cümlələr çıxarılsın;

1-ci bəndinə aşağıdakı redaksiyada ikinci abzas əlavə edilsin:

"Milli Bankın normativ xarakterli aktları müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçdikdən sonra özlərində başqa qayda nəzərdə tutulmamışdırsa, dərc edildiyi gündən qüvvəyə minir.";

3-cü bəndi çıxarılsın.

III. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 12 oktyabr 2001-ci il
№ 200-IIQD